**AZƏRBAYCAN UNİVERSİTETİ**
**Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri**
**respublika konfransı**
**24 oktyabr 2019-cu il**

Son zamanlar dünyada gedən bir sıra siyasi, iqtisadi, sosial proseslər hər bir ölkənin qarşısına konkret inkişaf strategiyaları seçmək və onları həyata keçirmək mexanizmlərini işləyib hazırlamaq kimi tələblər qoyur. Bundan çıxış edərək Azərbaycan dövləti ölkə iqtisadiyyatına baxış bucağını dəyişmək, xammal iqtisadiyyatından yeni, müasir texnologiyalara əsaslanan iqtisadi münasibətlər sisteminə keçmək strategiyasını qəbul edib.

Bütün bunların reallaşmasına ölkənin elmi potensialının da cəlb olunması zəruridir. “Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri” elmi konfransının keçirilməsinin əsas məqsədi bu sahədə çalışan alimlərin yeni ideya və elmi nəticələrinin paylaşılması və müzakirə edilməsi üçün uyğun platforma təqdim etməkdir.

**Konfransın işi aşağıdakı istiqamətlər üzrə aparılacaqdır:**

- Qloballaşma və makroiqtisadi inkişaf
- Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri
- İnnovativ və rəqəmsal iqtisadiyyat
- İstehsalın iqtisadiyyatı
- Davamlı inkişafda qeyri-səlis məntiqin tətbiqi
- Humanitar problemlərin həllində İKT-nin rolu
- Həyat fəaliyyətinin müxtəlif sahələrinin sosial inkişafı
- Sosial elmlər
- Dil və ədəbiyyat
- İctimai elmlər

Məqalələrin göndərilməsi üçün son tarix - 27 sentyabr 2019-cu il
Konfransın işçi dilləri – azərbaycan, rus, ingilis

Məqalələrin tərtibi qaydaları:

Həcm: 5 səhifəyə qədər, format A4, şrift Times New Roman, ölçü 14, hər tərəfdən 2,0 sm, 1,5 interval, abzas 1,25.

Açar sözlər ədəbiyyat siyahısından əvvəl göstərilməlidir. Əgər material rus və ya ingilis dilində təqdim edilirsə məqalənin sonunda azərbaycan dilində xülasə əlavə olunmalıdır.

Məqalənin strukturu:

- Məqalənin adı böyük hərflərlə, qalın şriftlə (ölçü 14)
- Müəllifin soyadı, adı, atasının adı qalın şriftlə (ölçü 14)
- Təşkilat və şəhərin adı adi şriftlə (ölçü 12)

Konfransda iştirak etmək istəyənlər tezislərini sd@au.edu.az ünvanına göndərə bilərlər.

Təşkilati məsələlərlə bağlı suallarınızla bu ünvana müraciət edə bilərsiniz:

Ceyhun Hacıbəyli, 71
Azərbaycan Universiteti
Elm şöbəsi: +994 12 431 41 12 (daxili 160)
+994 55 203 82 88